# TEXNOPARKLARIN TƏHSİLDƏ VƏ İQTİSADİ İNKİŞAFDA ROLU
# II BEYNƏLXALQ SİMPOZİUM




**14-15 | NOYABR | 2024**

**NAXÇIVAN**

techcon24.ndu.edu.az
techcon24@ndu.edu.az
+994 60 426 49 19
+994 50 384 23 43

# DƏVƏT MƏKTUBU

Naxçıvan Dövlət Universiteti, Türkiyə Cümhuriyyətinin İgdir Universiteti, və Bayburt Universitetinin birgə təşkilatçılığı ilə
Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş
“**Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu**”
II Beynəlxalq Simpozium

14-15 noyabr 2024, NAXÇIVAN
**TECHCON24**

**Dəyərli elm adamı**!

14-15 noyabr 2024-cü il tarixlərində keçirəcəyimiz Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş **“Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu”** mövzusunda ikinci Beynəlxalq Simpoziumda iştirakınızdan məmnun olarıq. Yeni iqtisadi idarəetmə mərhələsində iqtisadi inkişafın hazırkı mərhələsində texnoloji təsisatların və innovasiyalaşan iqtisadiyyatın təmin olunmasından ibarət olan araşdırmaların səmərəli nəticələrinin müzakirə olunması və yeni layihələrə zəmin yaratması məqsədi ilə, Siz dəyərli elm adamlarını Naxçıvana dəvət edirik. Elmi etikaya uyğun olaraq təqdim olunan orijinal tədqiqatların yer alacağı simpoziumumuzda məqalə və tezislər dəqiqliklə incələnəcək və sonda simpozium kitabında nəşr olunacaqdır. Simpoziuma dəyərli tədqiqatlarınızla qatılmağınızı arzu edirik.

Hörmətlə,

**“Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu”** II Beynəlxalq Simpoziumunun təşkilat komitəsi

Mail. ***techcon24.ndu.edu.az***
***techcon24@ndu.edu.az***
Tel: (036) 5440861 (1015)
(00994) 503842343 (Cavadxan Qasımov)
(00994) 703658165 (Əli Həşimov)

# SİMPOZİUMUN MƏQSƏDİ

Texnoparkların səmərəli iqtisadi mühitin qorunmasında və onun iqtisadiyyatın sahə strukturu üzrə faydalılığının artırılmasındakı rolu çox böyükdür. Mənfəətin artırılmasına yönəldilən iqtisadi fəaliyyətin təmin olunmasında, təsərrüfat subyektlərinin mal və xidmətlərlə təmin olunması sahəsindəki proseslərin əlaqələndirilməsinin sürətlənməsində və beləliklə də, dayanıqlı biznes mühitinin yaradılmasında Texnologiya Parkının səmərəli nəticələrini müşahidə etmək mümkündür. Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkında struktur təşkilatlanması sahəsində diqqət çəkən sahələrdən biri də məhz biznes mühitinin möhkəmlənməsinə istiqamətlənən fəaliyyət məcmusu olaraq biznes inkubatorunun fəaliyyətinin təmin olunması ilə möhtəşəmlik qazanacaq.

Mahiyyət etibarı ilə, biznes inkubatoru çoxsaylı biznes ideyalarının təşviqi məqsədilə fəaliyyət göstərir. Burada iştirakçı olan kiçik sahibkarlıq subyektləri müxtəlif ideyarla çıxış edir və onların müzakirəsi ilə məşğul olurlar. Yəni biznes inkubatorunda kiçik layihələr və startaplar ilk mərhələdən biznes mərhələsinə qədər yol keçirilər, daha doğrusu, canlanırlar. Biznes inkubatoru iştirakçılar üzrə təlimlər təşkil edir və müəyyən müddət ərzində tədris proseslərinə də start verir. Həmin iştirakçılara müxtəlif şirkətlər tərəfindən konsaltinq (məsləhət) xidmətlər də təşkil olunur. Yəni bu xidmətin mahiyyəti öz biznesinin inkişafında maraqlı olan müştərilər birliyinə göstərilən xidmətlər növü olmasında ifadə olunur.

Texnopark malik olduğu struktur bölmələrlə sxematik olaraq, hər bir ideya, səmərəliləşdirici meyarlar və perspektivli nəticələr üçün açıq olmalıdır. Burada tələbələrin və ümumilikdə, yaradıcı gənclərin təmsilolunma hüquqları böyük əhatədə formalaşır.

Beynəlxalq Simpoziumun keçirilməsinin əsas məqsədi, Texnoparkların səmərəliliyinin əsaslandırılması, yeni ideyalar, layihələr və təşəbbüslər mərkəzi olmaqla, eyni zamanda, onlar arasında təcrübə mübadiləsinin paylaşılması, müvafiq mövzu üzrə elm adamlarının çoxistiqamətli elmi araşdırma nəticələrinin kompleksləşdirilməsi, sistemləşdirilməsi və milli iqtisadiyyatın uzunmüddətli perspektivlərinin daha da əlçatan olması sahəsindəki əsaslandırmalardan ibarət olmaqdadır.

## SİMPOZİUMUN İSTİQAMƏTLƏRİ

### 1. Texnoparkın fəaliyyətinin təşkil olunması

- Texnoparkın fəaliyyətinin iqtisadi və hüquqi tənzimlənməsi məsələləri
- Texnoparkın milli iqtisadiyyat üçün əhəmiyyətinin üzə çıxarılması

### 2. Tədris prosesləri ilə texnoparkın əlaqəliliyinin təmin olunması

- Tədrisdə və təhsildə texnoparkın səmərəli nəticələrinin əsaslandırılması
- Tədris proseslərində və ixtisaslaşmada texnoparkın əhəmiyyəti
- Texnopark, dünya təhsilinə inteqrasiya olunmanın mühüm meyarı olaraq
- Yeni və səmərəli ideya və təşəbbüslərin müəyyən olunmasında Texnoparklar
- İqtisadi əhəmiyyəti yüksək olan layihələrin ortaya qoyulmasında Texnoparkın nəzərə alınması

### 3. Texnoparkın iqtisadi səmərəliliyinin yüksəldilməsi yollarının araşdırılması

- Texnoparkın fəaliyyətinin təşkilində elmi araşdırmaların əhəmiyyətinin əsaslandılması
- Texnoparkın fəaliyyətinin səmərəliliyində xarici təcrübənin öyrənilməsi\
- Texnopark və sənaye birliklərinin səmərəliliyinin araşdırılması

## SİMPOZİUM MATERİALLARININ TƏRTİBİ QAYDASI

**Kağızın ölçüsü:** A4
**Boş sahə:** hər tərəfdən 2 sm
**Şrift:** Times New Roman, 12 pt
**Sətirarası interval:** 1,15 sm.
**Abzas:** 1,25 sm
**Məqalənin adı:** ortadan, böyük hərflərlə, qalın şriftlə
**Müəllifin soyadı, adı, atasının adı:** ortadan, qalın şriftlə
**İş yeri, şəhər, ölkə:** ortadan, qalın şriftlə
**E-poçt ünvanı:** ortadan, qalın şriftlə
**Açar sözlər** (3-5 söz): Azərbaycan, ingilis və rus dillərində
**Xülasə** (250-300 söz): məqalənin yazıldığı dildən başqa iki dildə
**Həcmi:** 5-8 səhifə (məqalənin bütün tərtibatı daxil olmaqla)
**Düstur:** Microsoft Equation
**Ədəbiyyata istinadlar:** APA tərzinə uyğun olaraq – cümlənin sonunda dəyirmi mötərizə içində müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi, səhifə.
Nümunə üçün: (Səmədova, 2024, s. 393)
**Ədəbiyyat siyahısı:** Mətndə qeyd olunan hər bir mənbə ədəbiyyat siyahısında əks olunur. Siyahı müəllifin adı ilə əlifba sırası ilə tərtib edilir.
**Nümunə üçün:**

1. Kofil, M. V. & Hubbard, R. G. (2019). Wiley revenue recognition: Rules and scenarios. Journal of Productivity, NY: Columbia University Press, 116-127.
2. Səmədova, R. A. (2024). Təhsilin ictimai münasibətlərə təsiri. Elmi əsərlər, Bakı: SƏS Nəşriyyatı, 393-407.
3. Yılmaz, E. (2021). Türkiye'de kapsayıcı eğitim. Ankara Üniversitesi Dergisi, 41-46

<table>
<tr><td colspan="2">SİMPOZİUMUN KEÇİRİLƏCƏYİ YER: Naxçıvan Dövlət Universiteti Konqres salonu</td></tr>
<tr><td>
MÜHÜM MƏLUMATLAR:<br>
- Ödənişsiz iştirak<br>
- Üz-üzə və online təqdimatlar<br>
- Xülasə və tam məqalə nəşri<br>
- İştirak sertifikatı<br>
MÖVZULAR:<br>
- Naxçıvan Muxtar Respublikasının Texnopark quruculuğunun iqtisadi səmərəliliyinin yüksəldilməsi;<br>
- Tədris proseslərində texnoloji təsisatların əhəmiyyəti;<br>
- Naxçıvan Dövlət Universitetində texnopark idarəetməsinin təşəkkülü;<br>
- Texnoparkın fəaliyyəti günümüzün reallıqları kimi;<br>
- Makroiqtisadi inkişafın təmin olunmasında alternativ imkanların nəzərə alınması;<br>
- Sənayeləşmə siyasəti və texnopark<br>
- Texnoparkın fəaliyyətinin tənzimlənməsi məsələləri;<br>
- Texnopark iqtisadi fəaliyyətin səmərəliliyinin mühüm meyarı olaraq.
</td><td>
MÜHÜM TARİXLƏR:<br>
Qeydiyyat və mövzuların təqdimi üçün son tarix: 01.11.2024<br>
Tezis və ya tam mətin göndərilməsi üçün son tarix: 11.11.2024<br>
Simpozium proqramının yayım tarixi: 05.11.2024<br>
Simpoziumun keçirilmə tarixi: 14-15.11.2024<br>
Simpozium kitabının yayım tarixi: 20.12.2024<br>
Simpoziumun dili: Azərbaycan, Türk, İngilis, Rus dilləri
</td></tr>
</table>